**Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında**

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**
Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı aşağıdakı kimi müəyyən edilsin:
1. Döyüş təyinatlı hərbi texnika.
2. Qanunla dövriyyəsi qadağan edilən silahlar və döyüş sursatı.
3. Dövlət hakimiyyəti orqanlarının rabitə şəbəkəsi, müdafiə, təhlükəsizlik və asayişi mühafizə ehtiyacları üçün nəzərdə tutulan rabitə şəbəkələri.
4. Müdafiə, milli təhlükəsizlik, hərbi əks-kəşfiyyat, xüsusi dövlət mühafizə xidməti orqanlarının şəxsi heyətinin xüsusi ləvazimatı və onların istehsalına və işlədilməsinə dair normativ-texniki sənədlər.
5. Hərbi səfərbərlik təyinatlı əmlak.
~~6. Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil edilmiş obyektlər.~~
7. Dövlət kəmiyyət vahidləri etalonları.
8. Dövlət, peşə, qulluq, bank, istintaq və məhkəmə sirləri, şəxslərin şəxsi və ailə həyatına dair məlumatları əks etdirən sənədlər.
*9. Azərbaycan Respublikasının qızıl ehtiyatı və əyar damğası.*
10. Pulların və poçt ödənişi nişanlarının buraxılması üçün avadanlıq.
11. Qanunla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən narkotik vasitələr, psixotrop maddələr ~~və prekursorlar~~ .
12. İnsan orqanı və (və ya) toxumaları.
13. Tətbiqi müəyyən edilmiş qaydada qadağan edilmiş dərman vasitələri.
14. Rəsmi sənədlər, şəxsiyyəti təsdiq edən sənədlər, Azərbaycan Respublikasının dövlət təltifləri.
15. Dövlət arxiv fondunun sənədləri.
16. Hazırlanmasının və ya uyğunlaşdırılmasının əsas məqsədi kibercinayətlər törətmək olan qurğular və ya kompüter proqramları.
17. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan genetik modifikasiya olunmuş bitkilər, həmçinin müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları. (Bu maddə 2015-ci il yanvarın 1-dən qüvvəyə minir)
18. Elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan, genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan yeyinti məhsulları. (Bu maddə 2015-ci il yanvarın 1-dən qüvvəyə minir)

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
**Bakı şəhəri, 23 dekabr 2003-cü il**
**№ 564-IIQ**